*Hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Bu əlamətdar gün xalqımızın böyük oğlu, dünyaşöhrətli dövlət xadimi, əbədiyaşar lider Prezident Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib.*

# Dilimizi sevək, onun saflığını qoruyaq



1918-1920-ci illərdə Milli hökumət əski əlifbadan istifadə etməklə dövlət və kargüzarlıq işlərini Azərbaycan (türk) dilində aparırdı. AXC gələcəkdə Əlifba komissiyası yaratmaqla islahat aparmağı nəzərdə tuturdu. Hətta 1918-ci ilin dekabrında Əlifba komissiyası ilk iclasında latın qrafikalı əlifbaya keçməyi tövsiyə etdi. Lakin 1920-ci ilin aprel işğalı əlifba islahatının aparılmasına imkan vermədi.

1922-ci ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yanında Əlifba Komitəsi yaradıldı. Bir il sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə latın qrafikası ərəb qrafikası ilə bərabərhüquqlu hesab edildi və 1924-cü ildən məcburi dövlət əlifbası elan olundu. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1928-ci il 11 oktyabr dekreti ilə respublikamız latın qrafikalı əlifbaya keçdi. Bir il sonra Azərbaycanda ərəb qrafikalı əlifbadan istifadə qadağan olundu və latın qrafikalı əlifba tətbiq olunmağa başladı. Lakin latın qrafikalı əlifba Moskvanı razı salmırdı. Çünki mərkəz kiril qrafikalı əlifbaya üstünlük verirdi. Nəticədə 1939-cu ilin iyulunda Azərbaycan SSR Ali Soveti 1940-cı il yanvarın 1-dən kiril qrafikasına keçmək haqqında qərar qəbul etdi. Ölkəmizdə kiril qrafikasından SSRİ dağılına qədər istifadə olundu.

1990-cu ildə yaradılmış Əlifba Komissiyası kiril qrafikasından latın qrafikasına keçmək haqqında Azərbaycan parlamentinə müraciət etdi. 1991-ci il dekabrın 25-də latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Lakin bu qanunun tətbiqi xeyli ləngidi. Ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində 2001-ci ildə latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdı.

Hər bir xalq dilinə görə fərqlənir. Xalqımızın dili Azərbaycan dilidir. Azərbaycan dili geneoloji təsnifatına görə türk dillərindən biri olub, həmin dil ailəsinin oğuz qrupuna aiddir.

Azərbaycan əlifbası tarixin bütün mərhələlərində çətin və şərəfli yol keçib. İlk əlifbamız kimi Orxon-Yenisey və Alban əlifbası haqqında kifayət qədər məlumatımız var. Sasani işğalları, ərəb yürüşləri, monqol istilaları Azərbaycan dilinin inkişafını ləngidən amillərdən olmuşdur. Səfəvilər dövründə Azərbaycan dili Mərkəzi Asiya, Yaxın və Orta Şərq, Kiçik Asiya və Qafqazda ən çox işlənən dillərdən biri idi.

Onu da qeyd edək ki, 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olundu. Mərkəz müttəfiq respublikalara ana dili məsələsində inadkarlıq etməməyi tövsiyə edirdi. Amma Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə 1978-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Heydər Əliyevin cəsarətindən ruhlanan bəzi müttəfiq respublikanın rəhbərləri də öz ölkələrində bu cür addım atdılar. Mərkəzin etirazları əyalət rəhbərlərini fikrindən döndərə bilmədi. SSRİ dağılandan sonra hər bir müttəfiq respublika müstəqil dövlətə çevrildi. 1995-ci il noyabr ayının 12-də müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul olundu. Ümumxalq səsverməsi yolu ilə qəbul olunan Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

Ölkəmizdə ana dilinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin inkişaf strategiyasını uğurla, yüksək işgüzarlıqla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin ana dilimizin saflığı, qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdlrılması istiqamətində apardığı siyasət uğurlardan xəbər verir.

**Anar İSGƏNDƏROV,**
**Milli Məclisin Elm və təhsil komitəsinin sədri.**

Respublika.- 2025.- 1 avqust (№ 158).- S.8.